**UOT: 73/76.**

**Rəna Məmmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Doktorant**
**e-mail: renaibazade@mail.ru**

# AZƏRBAYCAN RƏNGKARLIQ SƏNƏTİNİN İNKİŞAFI TARİXİNDƏN (1950 -1960 – CI İLLƏR)

**Xülasə**: Azərbaycan təsviri sənətində 1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində nəzərəçarpacaq, köklü dəyişikliklər baş vermişdi. Gerçəkliyin tam fərqli forma və təqdimatda əks etdirilməsi yeni nəsil rəssamlarının əsərlərində diqqətçəkən əsas məqamlardan biri idi.

**Açar sözlər**: rəngkarlığın inkişafı, sərt üslub, yaradıcı yanaşma, realizm, sənət əsəri, dəyişiklik.

Azərbaycan təsviri sənətində 1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində nəzərəçarpacaq, köklü dəyişikliklər baş vermişdi. Gerçəkliyin tam fərqli forma və təqdimatda əks etdirilməsi yeni nəsil rəssamlarının əsərlərində diqqətçəkən əsas məqamlardan biri idi. Sovet həyat tərzini təbliğ və tərənnüm edən sosialist realizmi bədii prinsipində yeni – gerçəkliyin "Sərt üslub" adlandırılan fərqli ifadəsi yer almağa başlamışdır. Sosialist realizmi XX əsrin 30-cu illərindən etibarən Sovetlər Birliyi incəsənətində əsas yaradıcılıq üslubu olaraq formalaşmış, ideologiya və təbliğatla sıx bağlı şəkildə inkişaf etmişdir. Bu üslubun əsas xarakterik cəhəti ölkənin ictimai-siyasi, mədəni həyatında baş verən hadisələrin dinamik inkişaf tempi ilə təsvir və təqdim etmək vasitəsilə ideallaşdırılması idi.

Azərbaycan incəsənətində sosialist realizminin əsas nümayəndələri B. Mirzəzadə, N.Əbdürrəhmanov, T.Tağıyev, B.Əliyev, X.Səfərova və digərləri müxtəlif janrlı çoxsaylı əsərlər yaratmışlar.



**1. Böyükağa Mirzəzadə "Bakı"**

Bədii məkanda yeni olan "Sərt üslub" sosialist realizmindən fərqli olaraq əməkçi insanların fəaliyyətini, qurub-yaratmaq əzmini və enerjisini təsvir obyekti seçməklə, əvvəlkilərdən seçilən estetikaya malik əsərlərin yaranmasını şərtləndirmişdir. "Sərt üslub"un ideoloqu və yaradıcısı tənqidçi və sənət tarixçisi Aleksandr Kamenski olmuşdur. O, fəaliyyəti boyu formalaşmış ənənəvi sərgi stereotiplərini dəyişməyə can atırdı.

"Sərt üslub"un ilk təmsilçiləri Tahir Salahov, daha sonra isə Viktor Popkov, Pavel Nikonov, Geliy Korjev, Nikoloy Andronov, Aleksandr və Pyotr Solomin qardaşları olmuşlar. Onlar özlərini rəngkar, heykəltaraş Aleksandr Deynekanın erkən dövr yaradıcılığının davamçıları hesab edirdilər. Bu cür bədii ifadə tərzinə üstünlük verən müəlliflər təsvirin romantikaya bələnməsinə, obrazların bədii şərhində kəskin xətlərə və lakonik rəng həllinə üstünlük verməklə, sərtlik effekti yaradırdılar.

A.Deyneka yaradıcılığının ilk mərhələsində modernizm üslubuna yaxın olsa da, son nəticədə, "sosialist realizmi"nin aparıcı nümayəndələrindən birinə çevrilmişdir. A.Deynekanın 1923-cü ildə yaratmış olduğu əsərin fotosunda rəssamın yaradıcılıq üslubunun 1920-ci illərdə modernizmə nə dərəcədə yaxın olduğunu bir daha əyani şəkildə görmüş oluruq.



**2. A. Deyneka “K. A.Vyalovun portreti” 1923.**



**3. A. Deyneka “Sevastopolun müdafiəsi” 1942.**

Azərbaycan təsviri sənət tarixində “Sərt üslub” Tahir Salahovun adı ilə bağlıdır. Görkəmli rəssam nəinki SSRİ məkanında və Azərbaycanda, ümumilikdə dünyada “sərt üslub”un əsas yaradıcısı hesab edilir. Akademik İsa Həbibbəyliyə görə, xalq rəssamı Tahir Salahov Azərbaycan təsviri sənətinin inkişafında Bəhruz Kəngərlidən sonrakı və Fərhad Xəlilovdan əvvəlki mərhələnin bənzərsiz zirvəsidir. Buna baxmayaraq, yaradıcılıq dövrü və əsərləri ilə tanış olub, araşdırma aparan zaman Azərbaycan təsviri sənətində sərt üslubda yaranan ilk əsərlərin həm də Tofiq Cavadov dəst-xəttinə aid olduğunu söyləmək mümkündür.

Tofiq Cavadov qısa zaman kəsiyini – 38 ili əhatə edən həyat və yaradıcılıq dövrünün müxtəlif mərhələlərində yaratdığı əsərlərində sosialist realizmi ənənələrini davam etdirən, 1950-ci illərin əvvəllərinə aid əsərlərində isə “sərt üslub”a xas xaraketrik cəhətləri özündə ehtiva edən müxtəlif portret, mənzərə, natürmort janrlı ilk əsərlərin müəllifi olmuşdur.



**4. T. Cavadov "Fəhlə portreti" 1950.**



**5. T. Cavadov "Balıqla natürmort" 1954.**



**6.T. Cavadov "Neftçilər" 1958-1959.**

Rəssamın 1958-1959-cu illərdə yaratmış olduğu "Neftçilər" əsəri təsviri sənətdə aktual olan Neft daşları, Xəzər neftçiləri mövzusunda işlənmiş yaddaqalan kompozisiyadır. Əsərdə ümumi arxa fonda neft çənləri və Neft daşları, ön planda isə yük maşınlarında külək istiqamətinin əksinə doğru hərəkət edən neftçilər təsvir edilmişdir. İstifadə edilən əlvan rənglər simvolik olaraq inkişaf edən neft sənayesinin rolunu ifadə edir. Göy papaqlı, yaşıl pencəkli obrazın paltarının cib hissəsində isə həmin dövrdə nəşr edilən, neft sənayesi haqqında xəbərlərin dərc edildiyi "Bakinski Raboçi" qəzətinin kiçik parçası aplikasiya şəklində kətana əlavə edilmişdir.

Yaradıcılıq üslubu, yaratdığı əsərləri ilə fərqlənən Tofiq Cavadovun son sənət əsəri 1963- cü ilə aid olan "Külək" əsəridir. Kətan üzərində yağlı boya ilə işlənmiş lakonik tutumlu əsərdə əsasən göy rəngin müxtəlif çalarlarından istifadə edilmişdir.



**7. T. Cavadov "Külək" 1963.**

Əsərdə təsvir edilmiş qadınların küləyə qarşı müqavimət göstərmək üçün ağac budaqlarından tutmağa çalışması çətinlik dərəcəsindən asılı olmayaraq insanların ümumi mübarizə əzmini əks etdirir. Əsərin başqa bir maraqlı tərəfi isə rəng çaları, fiqur və kompozisiya elementlərinə görə dünyaşöhrətli rəssam P.Pikassonun İkinci Dünya müharibəsinə həsr etdiyi "Hernika" əsəri ilə müəyyən bənzərlik təşkil etməsidir. "Külək" əsəri son sənət nümunəsi olmaqla bərabər Tofiq Cavadovun həyat və yaradıcılığının haqlı olaraq rekviyemi hesab edilir. Beləliklə də ömrü və yaradıcılıq üslubu tamamlanmamış qalır. Başqa sözlə desək, Azərbaycan təsviri sənətində Tofiq Cavadov və Tahir Salahov kimi iki dahi şəxsiyyətin yaradıcılığının kəsişmə nöqtəsi yeni cərəyan olan "Sərt üslub"u formalaşdırır. Tahir Salahov "sosialist realizmi"nə zidd olan, tənqidi realizm mənasını ifadə edən sənət cərəyanı istiqamətini inkişaf etdirir. Rəssam özü də "sərt realizm" yaradıcılıq üslubunu stalinizmdən sonra meydana çıxmış və həyat həqiqətlərinə əsaslanan yaradıcılıq istiqaməti hesab edirdi.

Bu üslubun təsiri yeni forma axtarışları ilə səsləşən orijinal dəst-xətti, təsviri sənətdə kolorit zənginliyinə xüsusi diqqət – Nadir Əbdürrəhmanov, Nadir Qasımov, Toğrul Sadıqzadə və Müslüm Abbasov kimi dövrün bir sıra nüfuzlu rəssamlarının yaradıcılığına sirayət etmiş, özünəməxsus üslubunun formalaşmasında mühüm rol oynamışdır.

Sərt realizm üslubunda yaradılan əsərlər mövzusundan asılı olmayaraq, əsasən, tünd çalarlı rənglərdən istifadə edilməklə ərsəyə gəlirdi. Bu üslubun əsas təsvir obyekti "sadə insan"dır. Əsərlərində müxtəlif peşə nümayəndələrinin – şaxtaçı, neftçi, kolxozçuların obrazlarını canlandıran rəssamlar üz cizgilərinin təsvirində boz, solğun rənglərdən istifadə etməklə insanların həyat tərzini, yaşadıqları və qarşılaşdıqları çətinlikləri qayğılı, sərt simalarda simvolik şəkildə əks etdirirdilər. T.Salahovun 1957-ci ildə V.İ.Surikov adına Rəssamlıq İnstitutunun tələbəsi ikən diplom işi kimi çəkdiyi "Növbədən qayıdanlar" əsəri də bu üslubda və mövzuda çəkilmiş əsərdir. Əslində, elə bu əsərin uğuru "Sərt üslub"un sənət meydanında özünə dayanıqlı yer tapmasında böyük rol oynadı. 1968-ci ildə rəssamın yaradıcılığının SSRİ Dövlət mükafatına layiq görülməsi isə yeni üslubun rəsmi səviyyədə təqdirinin görüntüsü oldu.

"Növbədən qayıdanlar" əsərində ümumilikdə açıq və parlaq rənglərdən istifadə edən rəssam əsas mövzunu incə keçidlər, gözoxşayan boz rəng çalarları ilə vurğulamışdır. Yorğunluqları, soyuq, küləkli havaya qarşı müqavimətləri obrazların simalarında əks olunmuşdur. "Növbədən qayıdanlar" əsəri Tahir Salahovun "sərt üslub"da yaratmış olduğu ilk əsər hesab edilir.



**7. T. Salahov "Növbədən qayıdanlar" 1957.**

Müəllifin 1960 – cı ildə yaratmış olduğu "Bəstəkar Qara Qarayevin portreti" əsəri işlənmə texnikası və elementləri baxımından dövrünə görə yeni və qeyri-ənənəvi hesab edilirdi.



**10. T. Salahov "Bəstəkar Qara Qarayevin portreti" 1960.**

"Sərt üslub"da yaratmış olduğu digər əsərləri ilə Azərbaycan rəngkarlığını dünyada təmsil edən Tahir Salahov, yaradıcılığı ilə özündən sonra gələn nəslin nümayəndələrinə zəngin və etibarlı bədii irs əmanət etmiş oldu. Zamanında gənc rəssamlarla yanaşı, özündən yaşca böyüklərin də "Sərt üslub"a meyllənməsi sübut etdi ki, sənət məkanına hamını qane edə biləcək estetik tutumlu bədii ifadə vasitəsi gəlmişdir.

**Ədəbiyyat siyahısı:**

1. Ç. Fərzəliyev. (2013) Tahir Salahov. Bakı: Şərq-Qərb.
2. Ç. Fərzəliyev. (2013) Tofiq Cavadov. Bakı: Şərq-Qərb.
3. R. Əfəndiyev. (1992) Azərbaycan incəsənəti. Bakı: İşıq.
4. R. Gülməmmədli. (2013) Tofiq Cavadov. İstanbul: Mega Basım Yayın AŞ.
5. А. Бобриков. «Суровый стиль: мобилизация и культурная революция
6. İnternet Resursları:
7. http://www.anl.az/down/meqale/azerbaycan/2018/noyabr/620017.htm
8. https://www.culture.ru/s/vopros/surovyi-stil/
9. https://dic.academic.ru/dic.nsf/ruwiki/234487
10. https://kulturologia.ru/blogs/220521/49922/
11.https://www.tg-m.ru/articles/1-2011-30/aleksandr-deineka-khudozhnik-vo-vremeni

**Мамедова Рена**

## ИЗ ИСТОРИИ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ ЖИВОПИСИ (1950-1960-ЫЕ ГГ.)

**Резюме:** В конце 1950-х - в начале 1960-х годов в изобразительном искусстве Азербайджана произошли значительные изменения. Отражение действительности в совершенно иной форме и подаче было одним из основных моментов в творчестве художников нового поколения.

**Ключевые слова:** развитие живописи, суровый стиль, творческий подход, реализм, произведение искусство, изменение.

**Rana Mammadova**

## FROM THE HISTORY OF THE DEVELOPMENT OF AZERBAIJANI PAINTING (1950'S -1960'S)

**Summary:** In the late 1950's – in the early 1960's, the significant changes took place in fine arts of Azerbaijan. Reflection of reality in a completely different form and presentation was one of the main points in the work of artists of the new generation.

**Key words:** art development, severe style, creativity, realism, masterpiece, evolution

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18. 01. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**